**“Seyfulla & Kövsər” və “Akyol İnternational” MMC-lərin dəri tullantısında zoonoz infeksiya törədicisinin aşkarlanmasına dair məlumat**

**(9 aprel 2025)**

İxrac üçün nəzərdə tutulmuş “Seyfulla & Kövsər” MMC-nin istehsal etdiyi 24,5 ton və “Akyol İnternational” MMC-nin istehsal etdiyi 98 ton dəri tullantısından Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən götürülmüş nümunələrin laborator müayinəsi nəticəsində məhsullarda təhlükəli zoonoz infeksiya törədicisi aşkarlanıb.

Faktla bağlı müəssisələrə dəri qəbuluna və sexlərin fəaliyyətinə müvəqqəti məhdudiyyət tətbiq olunub, digər sexlərdə olan dərilərdən nümunələr götürülərək laborator müayinələrə cəlb edilib. Uyğunsuzluq aşkarlanmış məhsul partiyalarının məhv edilməsi barədə qərar qəbul olunub.